# Üzeyir Hacıbəyliyə layiq mənəvi borc




İmza müəllif haqqında çox şey deyir. Heç tanımadığın, üzünü görmədiyin, bir kəlmə kəsmədiyin imza sahibinin yazı-pozusunu izləməklə onu tanımalı olursan. Özü də elə-belə tanımırsan, onu dərindən tanıyanlar qədər tanıyırsan. Bunun bir çox səbəbləri içərisində biri də odur ki, ədəbi yaradıcılıqda müəllifin hissləri, duyğuları, ürək çırpıntıları, istənilən bir məsələyə baxışı, xarakteri, kimliyi və s. dil açıb danışır. Bu mənada Əminə Abbasova (Tuncay) uzun illərdir ki, məqalələri, şeirləri, dram əsərləri ilə diqqətimi cəlb edir. Onun Üzeyir Hacıbəylinin xatirəsinə həsr etdiyi "Musiqi töhfələri" (Adiloğlu", Bakı, 2013) kitabı uzun illər ərzində yazdıqlarının bir qisminin cəmidir. Burada toplanmış məqalələrin hər birində Əminə xanımın kimliyini, keçirdiyi hissləri, mühakimə qabiliyyətini, məsələləri analiz etmək istedadını, yazdıqlarında ürəklə təfəkkür vəhdətini görməmək mümkün deyildir. Həm də Əminə xanımın çoxlarından bir fərqi də tədqiq etdiyi, öyrəndiyi obyektin fəlsəfəsinə varmasıdır. Bu yol onun üslubunun bir özəlliyi olmaqla, heç şübhəsiz, fəlsəfə üzrə fəlsəfə doktoru olmasından qaynaqlanır. Onun Füzuliyə, Üzeyirə, "Leyli və Məcnun"a münasibətində həqiqət belədir: Füzuli sözə, Üzeyir həqiqi mənada böyük sənətə, Məcnun Leyliyə, Leyli isə Məcnuna sadiqdir. Əminə xanım isə bunların hər birinin - dördünün də aşiqidir. Tərəddüd etmədən demək olar ki, Əminə xanım aşiq olanların - elmə, sənətə, şeirə, ədəbiyyata, insanlara aşiq olanların hər birinin aşiqidir. Məhz bu aşiqlik onu bir söz, düşüncə sahibi kimi sadiq olanlara bağlayır. O, sadiqləri özü axtarıb tapır. Bu cür Füzulini, Üzeyiri axtarır, araşdırır, "Leyli və Məcnun" dünyasının fəlsəfəsini tədqiq edir. Əminə xanım Füzulidən, Üzeyirdən, "Leyli və Məcnun"dan sadəcə olaraq bəhs etmir, onları duyaraq, sevərək, sevinclərinə şadlana-şadlana, fəryadlarına və əzablarına nalə çəkə-çəkə müasirlərinin başa düşəcəyi bir fəlsəfəni ortalığa qoyur. Bu fəlsəfənin adı Füzuli ilə, Üzeyirlə, "Leyli və Məcnun"la birgə çırpınan fəlsəfədir. O, hər birimizin müasiri olmaqla yanaşı, Füzulinin də, Üzeyirin də, "Leyli və Məcnun"un da müasiri ola bilir. Maraqlı olan da budur ki, o, eşqin əzəli və əbədi keyfiyyətlərini, sənətin, şeirin və ədəbiyyatın qeyri-adiliyini duya bilir. Və bu duyduqlarını hər bir kəslə bölüşməyə fürsət tapır. Əminə xanım Füzulini də, Üzeyiri də, "Leyli və Məcnun"u da konkret bir zamanın əlindən alır, bütün zamanların ideallarına çevirir. Odur ki, Əminə xanım "Leyli və Məcnun"u əbədiləşdirən Füzulini, Füzulini "Leyli və Məcnun" operası ilə əbədiləşdirən Üzeyir Hacıbəylini əbədiləşdirməklə yanaşı, özünün də ədəbiyyatın ədəbi üfüqlərindəki mövqeyini yaşadır.

Əminə xanım təkcə ədəbiyyat adamı deyil, təkcə ədəbiyyatın fəlsəfəsinə varan düşünə sahibi, qələm əhli deyil, həm də musiqini duyan, sevən, muğamlarımızı bilən nazik qəlbli, kövrək duyğulu bir insandır. Onu Üzeyir Hacıbəyliyə bağlayan bir cəhət də musiqiyə olan məhəbbətidir. Axı Üzeyir Üzeyir olmasına görə musiqiyə borcludur. Əgər musiqi olmasaydı, Üzeyir kimi bir fenomen yetişə bilərdimi?! Həm də musiqi və Üzeyir olmasaydı, Əminə xanım daha nədən yazardı?! Yəqin ki, yazdıqları az olmazdı. Ancaq musiqi barədə, Füzuli barədə, Üzeyir barədə yazdıqlarından məhəbbətli olmazdı. Əminə xanımın musiqi duyumu onu Füzuli ilə yanaşı, Üzeyir Hacıbəyliyə də, onun "Leyli və Məcnun" operasına da məhəbbətli, sayğılı və qayğılı edir.

Əminə xanıma görə, Füzuli də, Üzeyir də bir ağacın gövdəsindən ayrılmış budaqlardır. Həmin budaqlar eyni gövdədən ayrılsalar da, onların yaş fərqi var, dövr fərqi var, zaman fərqi var. Ancaq onların hər ikisi üçün eyni əsas, eyni qaynaq var ki, onu unutmaq olmaz. Əsl mətləbin də burasında olduğunu duyan Əminə xanım Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasına haqlı olaraq bir hadisə kimi yanaşır. Yenə də "Leyli və Məcnun" operasının fəlsəfəsində muğamların oynadığı rola diqqət yetirir. Üzeyir Hacıbəylinin operanı yazanda 23 muğamdan istifadə etdiyi diqqət mərkəzində saxlanılır. Bu muğamların operanın məzmunundan başlamış ta ruhuna qədər hopduğunu əsaslandırır. Məsələlərə bir musiqişünas kimi yanaşır. "Mahur-Hindi", "Şikəsteyi-fars", "Mübərriqə", "Çargah", "Müxalif", "Mənsuriyyə", "Simai-Şəms", "Hicaz", "Sarənc", "Şur", "Kürd-Şahnaz", "Zəmin-xarə", "Qatar", "Pəngigah", "Tərkib", "Bayatı-Şiraz", "Bayatı-Kürd", "Pəncigah", "Rast", "Əraq", "Kabili", "Arazbarı", "Osmanı", "Segah", "Xaric segah" muğamlarının "Leyli və Məcnun" operasında çalındığı məqamlar xüsusilə yerli-yerində göstərilir. Həm də "Leyli və Məcnun" operasında istifadə olunan muğamların lüğətini verməklə Əminə xanım oxucuya bir müəllim kimi pedaqoji ustalıq nümayiş etdirir. İstənilən bir məlumatı sadə və aydın dildə təqdim etməyin özü də bir elmdir. Əminə xanım bu mənada da Füzulinin və Üzeyir Hacıbəylinin sənətkarlığının fəlsəfəsini oxucuya çatdırmaq üçün sadə və aydın dildə izah etməyə üstünlük verir. Məsələn, o qeyd edir ki, "segah" fars sözüdür və "se" üç, "gah" mövqe, məkan, vəziyyət deməkdir. Segah muğamı Yaxın və Orta Şərq xalqlarının musiqisində çox işlənən muğamlardan biridir. Əminə xanım yazır: "... "Segah" bir məqam kimi də Azərbaycan musiqisində mühüm yer tutur. **"Azəri xalq mahnıları", "Oyun havaları",** eləcə də aşıq musiqi yaradıcılığına mənsub musiqi forma və janrlarından bir çoxu məhz "Segah" muğamı kökündə yaranmışdır. Yaxın və Orta Şərq ölkələri musiqisində "Segah" yalnız tək bir növdən ibarət olduğu halda, azəri musiqisində "Segah"ın əsas etibarilə 3 növü vardır. 1. "Zabul segah", 2. "Xaric segah", 3. "Mirzə Hüseyn segahı". Əminə xanımın muğamlar barədə söylədiyi fikirlərin dəqiqliyi həm də oradan qaynaqlanır ki, o, Üzeyir Hacıbəylinin musiqi ilə əlaqədar müxtəlif illərdə yazdığı məqalələrini bir-bir oxumuş, bir çox mətləbləri əxz etmiş, nəticədə zəngin bilgilərə sahib olmuşdur. Əminə xanım Üzeyir Hacıbəylinin musiqini böyük sərvət hesab etməsini, Avropa musiqisinin elmi-nəzəri cəhətdən öyrənilməsinə xüsusi diqqət verməsini, Azərbaycan xalq musiqisinin əsasları üzərində irəli getməyin vacibliyini müdafiə etməsini yüksək qiymətləndirir. O, Üzeyir Hacıbəyliyə, daha doğrusu, onun musiqimizə verdiyi töhfələrə nə qədər qiymət verirsə, bir o qədər də Üzeyir Hacıbəyli ocağının yetirmələrinə qiymət verir. Məsələn, Niyazinin sənətkarlığının bünövrəsinin Üzeyir bəydən gəldiyini deyir. Onu Üzeyir ocağının dahi bəstəkarı hesab edir. Üzeyir bəyin "Koroğlu" operasını məhz Niyazinin dirijorluğunda möhtəşəm göründüyünü qeyd edir. Əminə xanımın hazırlığı, potensialı imkan verir ki, o, Üzeyir bəylə Niyazi arasında bir paralellik aparsın. O, bu paralelliyi aparır və qənaəti belə olur ki, Üzeyir bəydə bəstəkar-dramaturq vəhdəti, Niyazidə isə dirijorluq - bəstəkarlıq vəhdəti vardır. Eyni zamanda Niyazi də Üzeyir bəy kimi dünya miqyasına çıxa bilmişdir. Ancaq Üzeyir bəy də, Niyazi də böyük sənət əsərlərini milli kökə sadiqlik, vətəninə, dilinə, dininə, tarixinə, milli ruhuna bağlılıqla yazıb yaratmışlar.

Əminə xanım "Üzeyirin ölməzlik xəyalı"nı onun yaradıcılığına söykənərək müasir oxuculara təəssübkeşliklə çatdırır. Müasir oxucular deyəndə onu nəzərdə tuturam ki, müasir dünyanın dəyişməsi nəticəsində müasir oxucular formalaşıbdır. Onların tələbatları, zövqləri, həyata baxışları, dəyərlərə qiymətləri də müxtəlifdir. Bunları öz tələbatlarının, zövqlərinin, həyata baxışlarının, dəyərlərə qiymətlərinin imkanlarına buraxmaq olmaz. O qədər də asan başa gəlməyən bu iş güclü səy, zəhmət tələb edir. Bu səyə, zəhmətə qatlaşmaq isə vətənpərvərlik, vətəndaşlıq, ləyaqət işidir. Əminə xanım vətənpərvərlik, vətəndaşlıq, ləyaqət mövqeyindən çıxış edərək Üzeyir bəyi müasir oxucuların, müasir nəslin yaxından tanıması üçün əlindən gələni əsirgəmir. Üzeyir bəyin nadir musiqi sənətinin ölməzliyinin bütün göstəricilərini qeyri-adi bir zövqlə müasirləri ilə bölüşür. Həmin müasirlər içərisində, təbii ki, gənclər, gənc oxucular da vardır. Onları Üzeyir Hacıbəyli ilə bağlı məlumatlandırmaq Əminə xanımın öhdəsinə düşmüşdür ki, o, bu missiyanı mənəvi bir övlad borcu kimi yerinə yetirir.

Əminə xanım oxucunu inandırır ki, XX əsr musiqisi və teatr tarixi Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Şərqdə ilk operanın yaradıcısı da odur. "Sənsiz" və "Sevgili canan" romansları, Böyük Vətən Müharibəsi illərində "Çağırış", "Yaxşı yol", "Anasının oğluna məktubu", "Şəfqət bacısı", "Döyüşçülər marşı" və digər vətənpərvər ruhlu mahnılar, xalq çalğı alətləri orkestri üçün "Cəngi" pyesi, "Vətən və cəbhə" kantatası Üzeyir Hacıbəyli yaradıcılığının məhsuludur. Əminə xanımın Üzeyir Hacıbəyliyə olan dərin məhəbbətinin nəticəsidir ki, "Koroğlu" eposuna, onun ilk tədqiqatçısı Vəli Xuluflıya, dillərdə dastan olan Koroğlu qalalarına üz tutur, tədqiqat işləri aparır. Və hər dəfə də öz duyğu və düşüncələrinə faktları əlavə edərək oxucu üçün maraqlı olan həqiqətləri təqdim edir. Onun Üzeyir Hacıbəylinin xidmətlərinə, o cümlədən musiqi sahəsindəki xidmətlərinə olan dərin məhəbbətinin sayəsində araşdırmalarından yeni-yeni qollar ayrılır. O, Əhməd Bakıxanovun musiqi sahəsindəki xidmətlərini tədqiq edir, daha qədimlərə gedərək Nizami yaradıcılığında musiqinin vəsfinə diqqət yetirir. Eyni zamanda musiqi ahəngindən, avazından, musiqi pərdələrindən, sazdan, şeypurdan, uddan, təbil alətindən, kanondan, kamançadan bəhs edir. Ozan-aşıq şeirinin zirvəsi olan Aşıq Ələsgərin yaradıcılığının fəlsəfəsini öyrənir. Aşıq Alıdan, Aşıq Şakirdən, qara zurnadan, Qara Qarayevdən, folklorşünaslığımızın inkişafında xidmətləri olan Qəzənfər Paşayevdən, Azərbaycan musiqisinin parlaq siması olan Ələkbər Tağıyevdən, görkəmli kamança ustası Habildən, Opera və Balet Teatrından, Şamaxıdakı musiqi məclislərindən - daha kimlərdən, nələrdən bəhs edir ki, bunların hamısı eyni ruhun daşıyıcıları kimi Əminə xanımı duyğulandıran dəyərlərdir. Əgər istənilən bir yazı, məqalə, araşdırma və s. oxucunu öyrətmirsə, o, ölü bir yazı, məqalə, araşdırma kimi qalır. Ancaq öyrədən yazı, məqalə, araşdırma və s. diridir.

Bu mənada Əminə xanımın yazıları, məqalələri, araşdırmaları diridir, faydalıdır və gərəklidir. Onun yazdıqları, araşdırdıqları mədəniyyətə, ədəbiyyata, sənətə, musiqiyə bağlı olan hər bir kəsin faydalana biləcəyi mövzulardır. O, çalışır ki, yazdıqlarının hər birində başqalarından fərqlənərək yeni bir səhifə açsın, yeni bir zirvəni fəth etsin. Bununla da gələcəkdə onun yazdığı mövzularda yazacaq tədqiqatçıları məsuliyyətə çəkir. Onların məsuliyyətini birə-yüz qat artırır. Bu da onun yaradıcılığının özəl xüsusiyyəti kimi diqqəti cəlb edir. Əminə xanımın ən üstün cəhətlərindən biri olaraq onu başqalarından fərqləndirir. Seçilənlər cərgəsində olmaq statusunu verir.

Əminə xanım Tuncaya yaradıcılıq yollarında uğurlar arzulayırıq. İnanırıq ki, o, böyük şövq və enerji ilə yazıb-yaradacaq, ədəbiyyatımıza, mədəniyyətimizə yeni-yeni töhfələr verəcəkdir.

**Buludxan XƏLİLOV,**
**filologiya üzrə elmlər doktoru, professor.**